# Qarabağda bir ailənin amansız qətliamı



***Azərbaycanda türk soylu, müsəlman inanclı əhaliyə qarşı dəfələrlə kütləvi soyqırımlar törətmiş erməni millətçi qatillər bütöv bir ailəni, nəsli qırmaqdan, ayrı-ayrı yaşayış məntəqəsini yer üzündən silməkdən belə çəkinməmişlər. Məqsəd əhalisini öldürdükləri, qovub çıxardıqları ərazilərdə havadarlarının köməyi ilə "böyük Ermənistan" dövləti qurmaq olmuşdur. Daşnakların 1918-ci ildə törətdikləri amansız qətliamlardan biri də Qarabağ xanları nəslindən olan Əsəd ağa Cavanşirin ailəsinin məhv edilməsi olmuşdur. Bu yazıda həmin faciədən söz açılır.***

Ailəsinin başına gələn qanlı fəlakətdən sonra 21 yaşlı Cahangir ağa təsadüfən sağ qalmış bacısını da götürüb, ermənilərin Hoğa kəndində qırğın törədib xaraba qoyduğu mülklərindən qonşu Pirəhmədli kəndinə qaçmağa məcbur oldu. O, burda yaşayan uzaq qohum-əqrəbasının yanında özünə sığınacaq tapdı. Qohumları, əzizləri Əsəd ağanın yadigarlarını – bu qardaş-bacını canıyananlıqla, həm də böyük ürək ağrısı ilə qarşıladılar, dərdlərinə şərik, özlərinə arxa-dayaq oldular. Bu bədbəxt insanların yaşamaları, dolanışıqları üçün bacardıqlarını elədilər. Vaxtı çatanda Cavanşir ağaya ailə həyatı qurmaqda da köməklərini əsirgəmədilər...

Cahangir ağa Cavanşir Qarabağ xanları nəslindən, İbrahimxəlil xanın oğul törəmələrindən idi. Ballıca, Quyucaq və Hoğa kəndləri də rəiyyətləri və geniş torpaq sahələri ilə birlikdə ulu babaları Məhəmmədhəsən ağadan onlara miras qalmışdı. Atası Əsəd ağa Ağaxan oğlu (1861–1918) faciəli şəkildə qətlə yetirildikdən sonra Hoğa kəndi onun şəxsi mülkiyyəti olmuşdu. Əsəd ağa 1918-ci ilin sonuna qədər burda dəbdəbəli və firavan həyatını yaşayırdı. Lakin...

Lakin Əsəd ağa Cavanşirin növrağı birdən-birə pozuldu. Böyük bir faciə onun da, ailəsinin də xoşbəxt günlərinə son qoydu.

...1917-ci ildən başlayaraq Qarabağ erməniləri yaranmış hakimiyyət böhranından bicliklə istifadə edərək mütəşəkkil şəkildə silahlanmağa başladılar. Onlar bir neçə aydan sonra qurulmuş milli Azərbaycan hökumətini tanımaq istəmədilər və özlərinin məkrli, xəyanətkar planlarını–yerli türk əhalini öz dədə-baba torpaqlarından qovub-çıxarmaq, Qarabağı Azərbaycandan qoparıb, Ermənistana birləşdirmək niyyətlərini həyata keçirməyə başladılar.

Beyinləri xalqımıza qarşı daşnak niyyətləri ilə zəhərlənmiş silahlı quldur dəstələri qalın meşələrdə, sıx kolluqlarda, yolların kənarlarında, hündür təpələrin üstündə ov itləri kimi marıqda durur, gəlib-keçən azərbaycanlılara basqın edir, hər cür zorakılığa əl atırdılar. Gözlərini qan örtmüş erməni bandaları gecələr kəndlərə soxularaq evləri çapıb-talayır və öz murdar, qansız xislətlərinə uyğun qanlı faciələr, böyük ziyanlıq törədirdilər. Günü-gündən vəhşiləşmiş quldurlar böyüyə-kiçiyə, kişiyə-qadına məhəl qoymayaraq bütöv bir ailəni, bütün bir nəsli məhv etməkdən qorxub çəkinmirdilər.

Tayqulaq Andronikin quldur dəstələri Zəngəzur ərazisinə girəndən sonra Qarabağ ermənilərinin ayaqları daha da yer aldı, əl-qolları açıldı, onlar daha da quduzlaşdılar. Daşnaklar Levon Vartepetovu Şuşa qəza komissarı vəzifəsinə seçdirdilər və guya, əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə sürətlə polis dəstələri yaratmağa başladılar. Tamamilə ermənilərdən ibarət olan bu dəstələr Şuşa və Karyagin qəzaları ərazilərində, xüsusən də, böyük strateji əhəmiyyəti olan Əsgəran qalasında gözətçi məntəqələri yaratdılar.

Ermənilər tək-tük silahlı azərbaycanlıları tərksilah edir, yolları bağlayır, Azərbaycan kəndlərinin bir-biri ilə əlaqəsini kəsir, qəflətən hücuma keçərək əhalini qırır, ya da didərgin salırdılar. Şuşa qəzası II polis məntəqəsindəki Aranzəmin kəndində Karapet Kovxanın quldur polis dəstəsinin törətdiyi cinayətlər və vəhşiliklər daha ağlasığmaz idi. Elə bu qaniçənlərin Hoğa kəndinə növbəti hücumu da Əsəd ağanın və onun ailəsinin amansızcasına qətlə yetirilməsi ilə nəticələndi.

II polis məntəqəsində baş verən bu dəhşətli hadisənin şahidi olmuş Nikolay Mixaylov adlı bir rus məmurunun yuxarıya verdiyi rəsmi məlumatda deyilirdi: "1918-ci il dekabrın ortalarında ermənilər Hoğa kəndində əlli beş azərbaycanlı evini dağıtmış, mülkədar Cavanşirovların malikanəsini yandırmış, ailə başçısı Əsəd ağa Cavanşiri, onun oğlu Sultan ağanı, qızı İranə bəyimi, qardaşı qızı Fatma bəyimi, qulluqçuları İnci Hacı Abış qızını, nökərləri Allahverdi Əziz oğlunu, İsa Abış oğlunu və Vəli Kərbəlayı Ələsgər oğlunu öldürmüş, meyidlərini təhqir etmiş, əvvəlcə onların dərilərini soyub, sonra xəncərlə doğramışlar. Əsəd ağanın bütün əmlakı talan edilmiş, ev əşyaları, mal-qarası və kənd təsərrüfatı alətləri aparılmış, evi və digər tikililəri yandırılmışdır".

Bu qanlı hadisədən sonra Cahangir ağa artıq Pirəhmədli kəndini özünə həmişəlik yaşayış yeri seçdi. Bir çox xan və bəy övladları kimi təzə hökumətin ilk zərbələrindən biri də ona dəydi. Elə sovet hakimiyyəti qurulan ilk günlərdən Hoğa kəndində atasından qalma nəyi vardısa, hamısı əlindən alındı, ona yalnız bir dəyirman saxlandı. Bu, azmış kimi, hökumətin öz vətəndaşlarına, xüsusən, varlılara olan düşmən münasibəti, vaxtilə əlindən tutduğu bəzi adamların nankorluğu və çörəklərinin dizi üstündə olması Cahangir ağaya çox pis təsir göstərdi, əsəblərini tamamilə tarıma çəkdi, yeni quruluşa qarşı onda nifrət hissləri oyatdı. Elə bu sıxıntılar nəticəsində də Cahangir ağa amansız və sağalmaz xəstəliyə düçar oldu, şikəst halına düşdü. Buna baxmayaraq, o, Allahına şükür eləyə-eləyə dəyirmanından gələn azacıq gəlirlə ailəsini birtəhər dolandırdı.

Amma mərdiməzarı axtarmaqla deyil. Hökumət idarəsində məsul bir vəzifədə çalışan keçmiş muzdurlardan biri Cahangir ağanın atasının keçmiş mülkədar olduğunu, vaxtilə kəndliləri istismar elədiyini, oğlu üçün çoxlu mal-mülk, varidat qoyub-getdiyini yazıb, yuxarılara "xatırlatdı". Elə bu vaxt Cəbrayıl qəzası Siyasi İdarənin əməkdaşı, Mirzəyev familiyalı birisi partiyanın göstərişi ilə bəylərin və xan övladlarının Azərbaycanın hüdudlarından kənara sürgün olunması barədə yenicə qüvvəyə minmiş qərarını əlində rəhbər tutaraq qəflətən Cahangir ağanı həbs eləyib, islah evinə gətirdilər. Burda ona bildirdilər ki, məhkəməsi olandan sonra sürgünə göndəriləcək.

Həbs olunacağını ağlına belə, gətirməyən Cahangir ağa Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğluna dərhal bir məktub ünvanladı, xəstə olduğunu və heç bir cinayəti olmadığını bildirdi, həbsxanadan buraxılmasını xahiş elədi. Uzun müddət keçdi, lakin cavab gəlmədi. Yenə də bir çox əlaqədar təşkilatlara müraciət elədi, yenə də məktubları cavabsız qaldı. Bu dəfə isə "On iki imama yalvarınca bir Allaha yalvar", – deyib Azərbaycan Dövlət Siyasi İdarəsinin rəisi Mir Cəfər Bağırova müraciət elədi.

22 iyul 1927-ci il tarixli ərizəsində Cahangir ağa yazırdı: "İki il əvvəl mən iflic olmuşam. Ona görə də əlim və sağ ayağım işləmir. Əmək qabiliyyətimi tamamilə itirmişəm. Buna baxmayaraq, Fövqəladə Komissiya məni heç bir səbəb olmadan həbs edib və burda deyirlər ki, məni harasa sürgünə göndərəcəklər.

Yoldaş Bağırov mənim heç kimim yoxdur, nə valideynim, nə qardaşım, nə də yaxın qohumlarım. Mənim yalnız həyat yoldaşım var, o da heç bir var-dövlətə sahib deyil. Gündəlik ruzumuzu zorla çıxarırıq. Sizin kommunist vicdanınıza müraciət eləyərək mənə kömək eləməyinizi xahiş edirəm".

Lakin Mir Cəfər Bağırovdan da bir səs-soraq çıxmadı. Cahangir ağa taleyi ilə barışmalı oldu, istintaqı və məhkəməni gözləməyə başladı. Amma onu nə dindirib-danışdıran oldu, nə də məhkəməsi. Sosial cəhətdən zərərli ünsür hesab olunduğuna görə Dövlət Siyasi İdarəsi 9 avqust 1927-ci il tarixli qərarı ilə 30 yaşlı Cahangir ağa Cavanşir 3 il müddətinə Qazağıstana sürgün olundu. Və o gedən qardaş bir daha geri qayıtmadı. Bu yerdə deyiblər: "İt qapan arvadı üstündən də əri döyər".

***Vasif QULİYEV,***
***"Şuşa" qəzetinin baş redaktoru***

Xalq qəzeti .- 2022.- 31 mart.- S.8.